# Xalq artisti Məlik Dadaşovun məzarı ziyarət olunub



**Xalq artisti Məlik Dadaşovun anadan olmasının 100-cü ildönümü tamam olur. Bu münasibətlə Mədəniyyət Nazirliyinin nümayəndələri, tanınmış mədəniyyət və incəsənət xadimləri, sənətkarın ailə üzvlərinin iştirakı ilə İkinci Fəxri xiyabanda Xalq artistinin məzarı ziyarət olunub.**

Anım mərasimində çıxış edən mədəniyyət nazirinin müavini Murad Hüseynov deyib ki, Azərbaycan aktyor məktəbinin orta nəslinə mənsub olan Məlik Dadaşov teatrda onlarca obraza səhnə həyatı verib, elə kinoda da yaddaqalan, maraqlı rollar yaradıb. O, təkcə Azərbaycanda deyil, bütün dünyada xalqımızı təmsil edən nadir sənətkarlardan olub. Yüksək intellektə, mədəniyyətə malik, aktyor sənətinin yüksək texnikasına yiyələnmiş bu sənətkar bir-birindən maraqlı, bənzərsiz rollar yaradıb.

Azərbaycan Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev qeyd edib ki, görkəmli aktyor Məlik Dadaşov "Birisi gün, gecəyarısı", "O dünyadan salam", "Fəryad", "Hacı Qara" kimi filmlərdə yaddaqalan və maraqlı obrazlara ekran həyatı verib. O həm komediyalar, həm dramatik və faciə xarakterli obrazlar, həm də lirik-psixoloji rollarda böyük fərqli obrazlar yaratmaqla tamaşaçıların yaddaşında silinməz izlər qoyub.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbəri, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadə, Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi Ədalət Hacıyev Məlik Dadaşovun Azərbaycan aktyorluq məktəbinin formalaşmasında xüsusi xidmətləri olduğunu bildiriblər. "Aktyor ömrünün son illərində S.Vurğun adına Rus Dram Teatrında çalışıb. Bu teatrda direktor kimi çalışdığı dövrdə teatrın repertuarı xeyli zənginləşib, buraya yeni yaradıcı qüvvələr cəlb olunub. 1980-ci illərdən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində aktyor sənətindən dərs də deyib", - deyə o, əlavə edib.

Sonda Xalq artisti Brilliant Dadaşova mərhum sənətkarın ailəsi adından hər kəsə öz təşəkkürünü bildirib.

Azərbaycan. - 2024.- 9 iyun, № 121.- S.11.